# NAFTALAN: SAKİNLƏRİN VƏ TURİSTLƏRİN RAHATLIĞI ÜÇÜN İNNOVATİV ADDIMLAR

Dünya iqtisadiyyatında böhranlı vəziyyətin yaşandığı bir zamanda ölkəmiz öz yolu ilə gedir, öz siyasətini aparır. Ona görə də bu gün Azərbaycanda inkişaf və sabitlik var. Sevindirici hal ondan ibarətdir ki, bunun qarşılığında sənaye potensialı artmış, qeyri-neft sektorunda dinamik inkişaf qabarıq görünür, Azərbaycana bütün sahələrə xarici ölkələrin marağı artmaqdadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir. Ölkəmizdə əhalinin sosial şəraitini daha da yaxşılaşdırmaq, infrastrukturu yeniləşdirmək,



müasir müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi vəzifəsini irəli sürən regional Dövlət proqramları ölkəmizin uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasını reallaşdırıb.

Naftalanda həyata keçirilmiş çoxsahəli tədbirlər sistemi həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlı olması ilə diqqəti çəkir. Şəhərdə az bir zaman çərçivəsində aparılan genişmiqyaslı tikinti, abadlıq və quruculuq işləri, sözün əsl mənasında təqdirəlayiqdir. Yeni sağlamlıq mərkəzləri, müalicə ocaqları tikilmiş, əsaslı surətdə təmir olunmuş, yeni müasir tələblərə cavab verən yollar çəkilmişdir. Hər yerdə yüksək dizaynla inşa edilmiş binalar, yenilənmiş gözoxşayan park və istirahət mərkəzləri, qədim ornament və elementləri ilə işlənmiş sosial və ticarət obyektləri bir-birini tamamlayır və şəhərə xüsusi gözəllik verir.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naftalan şəhərinə daim diqqət və qayğısı şəhər rəhbəri - Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun az bir zaman kəsiyində apardığı məqsədyönlü, ardıcıl tədbirlər öz bəhrəsini vermişdir.** Belə ki, Naftalanın kurort şəhəri kimi keçmiş şöhrətini qaytarmaq və yeni məzmunda inkişaf etməyinin əsasını ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, qəbul edilən proqramlar və qarşıya qoyulan vəzifələrin icrası müvəffəqiyyətlə icra olunur. Praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyev Naftalana səfəri zamanı qeyd etmişdir ki, **"Naftalan haqqında çox eşitmişdim və burada mənim iki şey diqqətimi çəkdi. Birincisi, buranın gözəl təbiəti və şəhərin planlı şəkildə qurulması. Yəni buranın xiyabanları, yolları, küçələri, ağacları, parkları mənə çox böyük təsir göstərdi. Mən burada şəhərin elə bil ki, keçmiş gözəlliyini gördüm. Bir də demək istəyirəm ki, bugünkü gün Naftalanın yeni tarixinin başlanğıcıdır. Əminəm ki, bir neçə ildən sonra biz istədiyimizə nail olacağıq və Naftalan dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir".** Bəli, artıq bu, sözün əsl mənasında, reallığa çevrilmiş, Naftalan beynəlxalq və dünyəvi turizm mərkəzinə çevrilmişdir. Bu gün Naftalanda turizmin inkişafı üçün maksimum şərait yaradılıb. Hazırda şəhərdə geniş müasir səviyyəli sanatoriyaların tikintisi davam etdirilir.

Statistik mənbələrə əsaslanaraq, 2019-cu ildə kurort şəhərinə gələn turistlərin sayının əvvəlki illərlə müqayisədə artaraq 40 min nəfərədək çatdığını müşahidə edirik. Onlardan 40 faizi xarici turistlərin payına düşür. Bu statistika müstəqillik illərində Naftalanda qeydə alınan ən yüksək göstərici və müvəffəqiyyətdir. Bunun bariz nümunəsidir ki, 2019-cu il Naftalan kurortları sağlamlıq turizmi üçün MDB ölkələrinin ən yaxşı kurortları arasında ilk üçlükdə yer alıb. Bu barədə Rusiyanın "TurStat" portalının reytinqində bildirilir.




Görülən işlərlə yanaşı turistlərin rahatlığını təmin etmək və onları narahat edə biləcək problemlərin həlli də paralel aparılır.

Belə ki, Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov təyin olduğu ilk gündən vətəndaşlarla və şəhid ailələri ilə fərdi qaydada görüşür, sosial qayğıları ilə maraqlanır, sahibkarları dinləyir, tövsiyələrini verir. Artıq şəhər rəhbərinin təşəbbüsü ilə yeni bir innovasiya - şəhərdə fəaliyyət göstərən "Naftalan Müalicə və Sağlamlıq Mərkəzi"nin dəstəyi ilə gələn turistlərin məmnunluğunu və onların rahat gediş-gəlişini təmin etmək məqsədi ilə Naftalan - Goran dəmiryolu stansiyası - Naftalan istiqamətində müasir standartlara cavab verən Toyota markalı sərnişin daşıyan nəqliyyat vasitəsi istifadəyə verilib. Turistlərin bu istiqamətdə daşınması "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarının hərəkət cədvəlinə, sürət qatarının Goran stansiyasına çatma vaxtına uyğun olaraq həftənin hər günü həyata keçiriləcək və xidmət ödənişsiz qaydada göstəriləcək.

Eyni zamanda bu marşrutun açılmasının əsas səbəblərindən biri də Bakı-Gəncə-Bakı yeni sürətli sərnişin qatarının istifadəyə verilməsi və bu qatardan istifadə edərək Naftalana gələn yerli və xarici turistlərin sayında artım müşahidə olunmasıdır. İnamla demək olar ki, Möcüzəli Naftalan qədim və şərəfli tarixinə ehtiramı və nəsillərə yadigar qalacaq möhtəşəm tikililəri, mədəniyyəti, əfsanəvi müalicəvi kurort və sanatoriyaları, milli-mənəvi dəyərlərin qoruyub saxlanması ilə ən yeni tarixinin şərəfli səhifələrinə uğurla imza atdığını işi və əməli ilə bir daha sübut edir.




**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2020.- 29 yanvar.- S.3.